**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№378/9** **13 avqust 2025-ci il**

**Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə əməl edilmədiyinə və peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatların təqdim edilməməsinə görə intizam və tənbeh tədbirləri barədə**

Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 6.1-ci "Auditorların bağladığı müqavilələrin məbləğlərinin və müqavilə üzrə verilmiş rəylərin operativ təhlili və təkliflərin təqdim edilməsi" bəndinə uyğun olaraq Haqsız rəqabətə qarşı mübarizə idarəsi (R.Cəfərli) tərəfindən aparılmış araşdırmanın nəticəsinə dair təqdim edilmiş 2025-ci il 28 iyul tarixli xidməti məktuba əsasən Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nə dəfələrlə əməl edilmədiyinə və peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatları təqdim etmədiyinə görə Palata Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnaməyə uyğun olaraq "COUNSELOR" məhdud məsuliyyətli cəmiyyəti (direktor – Mikayılzadə Raqif Rami oğlu) barəsində intizam və tənbeh tədbirləri görülməsi məqsədilə Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Haqsız rəqabətə qarşı mübarizə idarəsi (R.Cəfərli) tərəfindən aparılmış araşdırmanın nəticəsinə dair təqdim edilmiş 2025-ci il 28 iyul tarixli xidməti məktub nəzərə alınsın (əlavə olunur).
2. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) və Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitəyə (E.Əliyev) tapşırılsın ki, on gün müddətində Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nə dəfələrlə əməl edilmədiyinə və peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatları təqdim etmədiyinə görə "COUNSELOR" məhdud məsuliyyətli cəmiyyəti (direktor – Mikayılzadə Raqif Rami oğlu) tərəfindən 2025-ci il ərzində aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətə dair plandankənar monitorinqin keçirilməsi və nəticələri barədə təkliflərin Palatanın rəhbərliyinə təqdim olunması təmin edilsin.
3. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**